**UDC:** 297.
**LBC:** 86.4
**MJ №** 228
10.33864/2617-751X.2024.v7.i3.159-174

# The Concept of Migration in Sufism

**Mehrab Demirzadeh***
**Ibrahim Allahverdiyev****

**Abstract.** In the science of Sufism, the concept of migration is widely used, both in an external and internal sense. Hijra, or migration, is not merely a physical journey but also reflects a deeper, broader meaning. Beyond the universally understood meaning of hijra, it also encompasses concepts such as "leaving behind evils, undergoing spiritual transformation, abandoning forbidden activities, staying away from bad traits, and embarking on a spiritual journey." According to hadiths, the Prophet Muhammad (saw) defined the Muhajir (a person who has migrated) as "...the Muhajir is a person who distances themselves from what God has forbidden." Additionally, students of knowledge and Sufi sheikhs often traveled to different countries to further their education, spread the religion, and share their knowledge with others. They frequently stayed for extended periods in the places they visited. In the science of Sufism, many terms are closely related to the concept of migration. Examples include the phenomena of Isra and Miraj, as well as concepts like seiri-suluk, journey, asceticism, and riyazat. Each of these holds its own significance and wisdom in the lives of those who seek knowledge.

**Keywords:** Sufism, migration, prophet, miraj, seiri-suluk, asceticism, Ibn Arabi.

---

* Master's student in Azerbaijan Institute of Theology; Baku, Azerbaijan (corresponding author)
E-mail: demirzade.mehrab@gmail.com
https://orcid.org/0000-0001-7955-0790
** Doctor of Philosophy in Philosophy; Baku, Azerbaijan
E-mail: ibrahimali80@gmail.com
**To cite this article:** Demirzadeh, M., & Allahverdiyev, I. [2024]. The Concept of Migration in Sufism. *“Metafizika” journal, 7(3),* pp.159-174.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.159-174

**Article history:**
*Received: 08.05.2024*
*Accepted: 29.07.2024*

**УДК:** 297.
**ББК:** 86.4
**MJ №** 228
10.33864/2617-751X.2024.v7.i3.159-174

# Концепция миграции в суфизме

**Мехраб Демирзаде**[*]
**Ибрагим Аллахвердиев**[**]

**Абстракт.** В науке суфизма понятие миграции является широко используемым понятием. Этот термин используется как во внешнем, так и во внутреннем смысле. Мы являемся свидетелями того, что хиджра организована без единой миграции и отражает несколько более широкую перспективу. В то же время, наряду с общепонятным значением термина хиджра, он имеет такие значения, как «отказ от плохих дел, духовный переход из одного состояния в другое, прекращение запрещенной деятельности и воздержание от плохих качеств, отправление в духовное путешествие, и т. Д.» Согласно хадисам, миграция (человек, который мигрирует) определяется Святым Пророком (мир ему и благословение Аллаха) как «…мигрант - это человек, который держится в стороне от того, что запретил Аллах» также освоили. Кроме того, студенты-науки и суфийские шейхи путешествовали по разным странам, чтобы совершенствовать свое образование, распространять религию и передавать людям то, что они узнали, и часто оставались на длительное время в посещаемых ими местах. В науке суфизма существует множество терминов, тесно связанных с миграцией. Можно привести примеры таких терминов, как явления исра и мирадж, а также такие понятия, как сейри-сулук, трип, аскетизм и миразат. Все это имеет свою собственную ценность и мудрость в жизни людей знания.

**Ключевые слова:** Суфизм, миграция, пророк, мирадж, видение, аскетизм, Ибн Араби

---

[*] Магистрант Азербайджанского Института Теологии; Баку, Азербайджан (ответственный автор)
E-mail: demirzade.mehrab@gmail.com
https://orcid.org/0000-0001-7955-0790
[**] Доктор философии по философии; Баку, Азербайджан
E-mail: ibrahimali80@gmail.com

**Цитировать статью:** Демирзаде, М., & Аллахвердиев, И. [2024]. Концепция миграции в суфизме. *Журнал «Metafizika», 7(3),* с.159-174.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.159-174

**История статьи:**
*Статья поступила в редакцию: 08.05.2024*
*Отправлена на доработку: 24.06.2024*
*Принята для печати: 29.07.2024*

**UOT:** 297.
**KBT:** 86.4
**MJ №** 228
10.33864/2617-751X.2024.v7.i3.159-174

# Təsəvvüfdə hicrət anlayışı

**Mehrab Dəmirzadə***
**İbrahim Allahverdiyev****

**Abstrakt.** Təsəvvüf elmində hicrət məfhumu çox istifadə olunan bir məfhumdur. Bu termin həm zahiri, həm də batini mənada istifadə edilmişdir. Hicrətin sadəcə bir köç etmədən ibarət olmadığının, özündə geniş bir mühtəvanı əks etdirdiyinin şahidi oluruq. Eyni zamanda hicrətin hamı tərəfindən başa düşüldüyü mənası ilə yanaşı “pislikləri tərk etmək, mənəvi olaraq bir haldan başqa bir hala keçmək, haram olan işləri dayandırıb pis xüsusiyyətlərdən uzaq durmaq, mənəvi cəhətdən səyahətə çıxmaq və s.” kimi mənaları vardır. Hədislərə əsasən, mühacirə (hicrət edən şəxs) Həzrət Peyğəmbər (s) tərəfindən verilən “...mühacir isə Allahın qadağan etdiyi şeylərdən uzaq duran şəxsdir” mənasında tərifini də mənimsəmişlər. Bundan əlavə, elm tələbələri və sufi şeyxlər təhsillərini artırmaq, dini yaymaq və insanlara öyrəndiklərini çatdırmaq üçün müxtəlif ölkələrə səfərlər etmiş və çox vaxt getdikləri yerlərdə uzun müddət qalaraq fəaliyyət göstərmişlər. Təsəvvüf elmində hicrətlə yaxından əlaqəli olan bir çox termin də vardır. Bu terminlərə isra və merac hadisəsini, seyri-süluk, səfər, zöhd və rəyazət kimi məfhumları nümunə verə bilərik. Bütün bunların hamısının irfan əhlinin həyatında özünəməxsus dəyəri və hikməti vardır.

**Açar sözlər:** Təsəvvüf, hicrət, peyğəmbər, merac, seyri-süluk, zöhd, İbn Ərəbi

---

* Azərbaycan İlahiyyat İnstitunun magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: demirzade.mehrab@gmail.com
https://orcid.org/0000-0001-7955-0790
** Fəlsəfə üzrə fəlsəfə doktoru; Bakı, Azərbaycan
E-mail: ibrahimali80@gmail.com
**Məqaləyə istinad:** Dəmirzadə, M., & Allahverdiyev, İ. [2024] Təsəvvüfdə hicrət anlayışı. *“Metafizika” jurnalı, 7*(3), səh.159-174.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.159-174

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 08.05.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 24.06.2024*
*Çapa qəbul edilmişdir: 29.07.2024*

## 1.Giriş

Hicrət anlayışını gözdən keçirərkən şahid oluruq ki, bu hadisə təkcə İslam Peyğəmbərinin (s) həyatına xass deyil, əvvəlki peyğəmbərlərin də həyatında baş vermiş bir hadisədir. İlk hicrət Adəm peyğəmbərin (ə) Həvva xanımla birlikdə dünyaya gəlişi ilə başlamış və o gündən bəri davam etmişdir. Digər peyğəmbərlərdə olduğu kimi İslam Peyğəmbərinin (s) dövründə də hicrət baş vermiş, birinci hicrət Həbəşistana, sonrakı hicrət isə Mədinə şəhərinə edilmişdir.

Təsəvvüfdə isə Merac hadisəsinə də hicrət (hicrəti-həqiqi) gözü ilə baxılmışdır. Təsəvvüf mənbələrində Peyğəmbərin (s) 34 dəfə merac etdiyi rəvayət olunur. Merac hadisəsinin hicrətlə çox yaxın əlaqəsi olduğuna görə bu mövzuya da toxunacağıq.

Hicrət etmək sonrakı dövrlərdə də davam etmişdir. Biz bunu bir çox böyük şəxsiyyətlərin həyatında görə bilərik. O cümlədən sufi məşrəbli şeyxlər də zaman-zaman hicrətə üz tutmuşlar, Veysəl əl-Qarani, İbrahim Ədhəm, İbn Ərəbi, Cəlaləddin Ruminin və s. yaşadıqları yerdən köç etdiyi məlumdur. Lakin təsəvvüfdə maddi hicrət etməkdən daha çox mənəvi hicrət etmək daha geniş yayılmışdır. Sufilər nəfsdən uzaqlaşmağı, qəlb ilə edilən səfəri, insanı Allahdan uzaqlaşdıran hər şeyi tərk etməyi və qəlbdən Allahdan başqa hər şeyi çıxarmağı maddi mənada olan hicrətdən daha üstün tutmuşlar.

## 2.Hicrət sözünün lüğəvi və terminoloji mənası

Lüğətdə "tərk etmək, ayrılmaq, əlaqəsini kəsmək" mənasını verən həcr və ya hicran məsdərindən törəyən hicrət sözü "insanın bir şeydən cismən, lisanən və ya qəlbən uzaqlaşması" deməkdir. Ən çox işlənən mənası "bir yeri tərk edərək başqa bir yerə köç etmək"dir. İstilahda isə darul-hərbdən darul islama köç etmək mənasında işlədilir. Bu hicrətin ümumi mənasıdır. Xüsusi mənada isə İslam Peyğəmbərinin (s) və müsəlmanların Məkkə şəhərindən Mədinə şəhərinə köç etməsini bildirir. [Önkal, Ahmet. "Hicret", 1998, c.17, s.458] Hicrət edən məkkəli müsəlmanlara mühacir, mədinəli müsəlmanlara isə ənsar deyilmişdir. [Aydın, Mustafa. 2015, s.106] Başqa sözlə desək, hicrət həm küfr, həm də onun əlamətlərini tərk etməkdir. İstər küfr yurdundan iman yurduna, istərsə də küfrün əlamətlərindən iman əlamətlərinə keçməkdir ki, bu da Allahın əmri ilə yerinə yetirilir [Gölçük, Şerafeddin, s. 9-10].

Misirli İslam alimlərindən biri olan Məhəmməd Qəzali (ö. 1996) də hicrət məfhumuna özünəməxsus izah vermişdir: "Hicrət o şeydir ki, sakit yaşayan bir insan mənfəətini itirməyə, var-dövlətini fəda etməyə, canını götürüb qaçmağa məcbur qalır. Üstəlik, vətənini tərk edərkən hiss edir ki, hər şeyi əlindən alınıb talan olunub, mümkündür ki, getdiyi yolun başında, ya da axırında həlak olsun, bilir ki, məchula sarı gedir, amma orada onu nələrin gözlədiyini bilmir" [Qəzali, s.259].

Təsəvvüfdə isə hicrətə bir qədər fərqli yanaşılır. İslamı batini mənada izah etməyə çalışan sufilik məzhəbi hicrət məfhumunu da daha çox bu aspektdən dəyərləndirməyə çalışmışdır. Buna görə də hicrəti “Həzrət Peyğəmbərin (s) varlıq məqamından heyrət məqamına köç etməsi” kimi ifadə etmişlər. Əlavə olaraq da Məkkənin fəthini Bəkkənin fəthi olaraq dəyərləndirib Peyğəmbərimizin (s) hicrət məfhumu ilə nəfsin qəlbə doğru inkişafını, şəhəri fəth etməklə də bu inkişafın kamala çatmasını ortaya qoyduğunu bildirirlər. Bunu bir süluk (Allaha doğru gediləcək yol) olaraq görürlər. Qısaca olaraq isə “pis və çirkin əxlaqdan və yaxud da günahkarlıqdan gözəl əxlaqa dönmək” adlandıra bilərik [Sargut, Camalnur. (02.03.2015)].

Təsəvvüfdə hicrət bədən ölkəsini tərk edib ruhlar aləminə köçü ifadə edir. Hicrət məzəmmət edilən xüsusiyyətləri tərk edib, təriflənən xüsusiyyətləri əldə etməkdir.[Cebecioğlu, Ethem. s.119] Beləcə, hicrət sözünün bir mənası “bir məkandan başqa bir məkana köçməkdirsə”, digər mənası da “mənəvi olaraq bir vəziyyətdən başqa bir vəziyyətə köç etməkdir”. Bu tərif sufilikdə çox istifadə edilir. Buna əlavə olaraq, sufilikdə geniş yayılmış “haramları tərk edib pis şeylərdən uzaqlaşmaq”, “nəfsi tərbiyə etmək üçün səfər etmək”, “qəlbən və zehnən xalqı tərk etmək” kimi tərifləri də qeyd edə bilərik [Demircan, Adnan, 2017, s.15].

Beləcə, hicrətin bir maddi mənası oldu ki, o bir yerdən başqa yerə köçməkdir, amma təsəvvüfdə bu məna çox mühüm deyildir. Bir də mənəvi mənası vardır ki, cismi aləmdən ruhi aləmə köç etməkdir. Təsəvvüfdə mühüm olan bu mənadır. Həm də diqqət etsək görərik ki, təsəvvüfdə nəfsi tərbiyə etmək və əxlaqının üzərində çalışmaq da özü bir hicrətdir.

## 3.Merac hadisəsi

Sufilikdə Merac hadisəsinə çox böyük əhəmiyyət verildiyinə və bir hicrət nümunəsi olaraq dəyərləndirildiyinə görə bu mövzuya da toxunmaqda fayda vardır.

Merac lüğətdə “yuxarı çıxmaq, yüksəlmək” mənasını verən “uruc” sözündən yaranmış “yuxarı çıxmaq üçün vasitə, nərdivan” deməkdir. Terminologiyada isə Həzrət Peyğəmbərin (s) göyə yüksəlməsi və Allah qatına qovuşması mənasına gəlir. Hadisə Kəbə evindən Əqsa məscidinə səfər və oradan da göyə yüksəlmə ilə reallaşdığına görə mənbələrdə daha çox “İsra və Merac” şəklində ifadə edilmişdir. Bizim dildə isə “Merac” deyildikdə iki mənanın ikisi də nəzərdə tutulur [Yavuz, Salih Sabri. “Mi’rac”, 2020, s.132].

Merac Həzrət Peyğəmbərin (s) Məkkədən Qüd şəhərinə aparılmasını, sonra isə göyə yüksələrək Allah qatına qovuşduğunu, orada əvvəlki peyğəmbərlərin ruhlarını, cənnət-cəhənnəmi, mələkləri görməsini, Allah ilə danışmasını və çox qısa zamanda da ayrıldığı yerə qayıtmasını ehtiva edir. Bu əslində iki qismə ayıra biləcəyimiz bir möcüzədir. Quranda İsra adlı

surədə bu hadisəyə işarə edilir. Lakin merac hadisəsi ayələrdə tam açıqlanmamışdır. İsra Məscidi-Həramdan Məscidi-Əqsaya olan səyahət qismini, merac isə Əqsa məscidindən sonra səmaya doğru yüksəliş qismini ifadə edir. Hadisə ilə bağlı otuzdan çox hədis nəql edilmiş, meracın baş verdiyi barədə ittifaq edilmişdir. Sadəcə olaraq İslam alimlərinin az bir hissəsi meracın ruhi olaraq reallaşdığını iddia etmiş, çoxu isə həm ruhi, həm də cismi olaraq reallaşdığını qəbul etmişlər [Koyuncu, Zeynep. s.91].

Sufilər isə merac hadisəsinə xüsusi əhəmiyyət verərək bunu həm öz əsərlərində nəsr və nəzm şəklində, həm də fərdi təcrübə olaraq qeyd etmişlər. Təsəvvüf tarixində merac edib səmalara yüksəlmə təcrübəsindən ilk dəfə bəhs edən şəxs məşhur sufi Bəyazid Bistami olmuşdur.

Həzrət Peyğəmbərin (s) İsra hadisəsini (Məkkədən Qüdsə aparılma) qəbul etməyən insan kafir olar. Çünki bu hadisə nass ilə sübuta yetmişdir. Merac hadisəsini isə qəbul etməyən insan bidət və zəlalət əhlidir. Çünki bu hadisə də xəbəri-vahidlə sübuta yetmişdir. Adını qeyd etdiyimiz meracın nurdan ibarət olduğunu deyənlər də olmuşdur.

Merac hadisəsinin neçə dəfə baş verməsi ilə bağlı da müxtəlif görüşlər vardır. Sufilər Peyğəmbərimizin (s) otuz dörd dəfə merac etdiyini bildirirlər. Biri cism ilə, digərləri isə ruh ilə həyata keçmişdir [Döner, Nuran, 2014. s.352-353].

İndi isə Qurani-Kərimdən iki nümunə verməklə bu məsələni davam etdirəcəyik:

“Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaiblikləri) göstərmək üçün bəndəsini (Peyğəmbər (s)) bir gecə Məscidül-Həramdan ətrafını mübarək etdiyimiz Məscidül-Əqsaya (Beytülmüqəddəsə) aparan Allah pak və müqəddəsdir. O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir!” (İsra surəsi 1).

“And olsun ki, (Muhəmməd (s) Cəbraili öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü. Sidrətül-müntəhanın yanında” (Nəcm surəsi 13-14).

Sufilər də merac möcüzəsinə əhəmiyyət vermiş, İslam Peyğəmbərinin üstünlüyünü vurğulamışlar. Muhəmməd peyğəmbər (s) tərəfindən İsa peyğəmbər (ə) haqqında söylənən “əgər yəqini çox olsaydı havada gəzərdi” hədisini də üstünlük olaraq şərh etmişlər. Cüneyd Bağdadi bu hədisi şərh edərkən İsanın (s) yəqini sayəsində su üzərində gəzə bildiyini, İslam Peyğəmbərinin (s) isə havada da gəzə biləcəyini qeyd edir. Beləcə, İsadan (ə) daha çox yəqinə sahib olduğunu vurğulamış olur. Çünki sufilərə görə mütləq mənada insani-kamil İslam Peyğəmbəridir. Cəlaləddin Rumi (ö. 1273) də ilk dövr sufiləri kimi merac hadisəsini dəyərli hesab etmiş və bu hadisəyə özünəməxsus izahlar vermişdir.

İbn Ərəbi (ö. 1240) də hər nə qədər yəqin məsələsini mütəqaddim sufilərdən fərqli şəkildə şərh etsə də, Həzrət Peyğəmbərin (s) yəqininə heç kimin yəqininin çatmadığını o da vurğulamışdır. Əlavə olaraq isə İslam Peyğəmbərinin (s) digər peyğəmbərlərə səmada namaz qıldırması hadisəsindən bəhs edərək cismən və ruhən onlara imam olduğunu, Peyğəmbər (s) vəfat etdikdən sonra isə kainatın bu peyğəmbərlər vasitəsilə qorunduğunu qeyd edir [Kara, Yusuf Bilal., s.141-143].

Təsəvvüfdə peyğəmbərlərin meracından əlavə vəlilərin meracı da qəbul edilir. Əlbəttə, bu iki meracın mahiyəti fərqlidir. Sufinin meracından məqsəd onun bir yerdən başqa yerə aparılmaq deyil, Allaha olan seyrində yol getməsidir. Buna görə də zamanla merac seyri-süluku ifadə etmişdir [Kara, Yusuf Bilal. s.149].

Lakin vəlilərin isrası yuxu və fəna halında (sufinin öz varlığından vaz keçib tanrının varlığında yox olması) olur. İsra yuxu formasında baş verərsə, ona röya və mübəşşirat deyilir. Əgər fəna halında baş verirsə, mükaşəfə (kəşf) deyilir. Birinci hal baş verərsə, dəstəmaz pozular, ikinci halda isə pozulmaz [Döner, Nuran, 2014., s.356].

İbn Ərəbi Mərakeşdə olarkən ruhani bir yüksəliş yaşayır. Peyğəmbərimizin (s) cismən və ruhən yaşadığı meracın mənəvi olan halıdır. Hər vəlinin məqamı fərqlidir, eynən hər sufinin də. Buna görə də sufilərin meracı da başqalarından fərqlilik ərz edir. İbn Ərəbi bu səfərindən danışanda belə bir izah verir: “Səyahətim özümdən başqa bir məkanda baş vermədi” [Döner, Nuran, 2014., s.358].

Bundan əlavə, İbn Ərəbi Həzrət Peyğəmbərin (s) meracında namazın fərz olmasından dolayı Peyğəmbərin (s) meracının hökm gətirmə xüsusiyyətinə malik olduğunu, vəlilərin meracının isə belə bir xüsusiyyətə malik olmadığını qeyd edir [Döner, Nuran. 2014., s.358].

İbn Ərəbinin fərdi təcrübə ilə yaşadığı merac hadisəsində nələrlə qarşılaşdığını onun öz əsərindən oxumuş oluruq. İbn Ərəbi mənəvi olaraq səmanın ilk qatına çatdıqda Adəm peyğəmbərlə (ə) qarşılaşır. Həzrət Adəm (ə) onunla söhbət edir, ona müəyyən bilikləri öyrədir. İbn Ərəbi Qiyamətin əlli min il davam edəcəyini və bu müddət bitdikdən sonra nələrin baş verəcəyinin Allahın ixtiyarında olduğunu öyrənir. Sonra Adəmin (ə) yanından uzaqlaşır və səmanın ikinci qatına çıxdıqda isə İsa peyğəmbər (ə) və Yəhya peyğəmbərlə (ə) görüşür. İsa Peyğəmbərə (ə) ölüləri diriltməsi haqqında suallar verir və Yəhya peyğəmbər (ə) ilə də onun Qiyamət günü ölümü məhv edəcəyi barəsində söhbət edir. Yəhya (ə) özünün ölümün ziddi olduğunu və ölümlə bir yerdə olmasının qeyri-mümkün olmasını İbn Ərəbiyə izah edir. [İbn Arabi, Muhyiddin, 2010, c.13, s.114-116] Ondan sonra səmanın üçüncü qatına doğru qalxır. Üçüncü qatda Yusif peyğəmbərlə (ə)

qarşılaşır, onlar salamlaşırlar. Yusif peyğəmbər ona ehtimal ilə təcrübənin fərqini izah edir. Özü ilə İslam Peyğəmbərinin (s) yaşadığı vəziyyəti müqayisə edir və nümunələr çəkərək mövzunu başa salmaqla yanaşı İbn Ərəbiyə nəsihətlər də edir. [İbn Arabi, Muhyiddin, 2010, c.13., s.118-119] Onu da dinlədikdən sonra dördüncü qata yüksələrək Həzrət İdris ilə görüşür. Ona salam verdikdə İdris (ə) onun salamını alır və ona Muhəmmədin (s) varisi deyə xitab edir. Cənab İdris İbn Ərəbiyə yaradılışın hər an yenilənməsi mövzusunu izah edir. Ondan Qiyamətin nə vaxt olacağını soruşur, İdris (ə) də "*insanlar üçün hesabları yaxınlaşdı, onlar qəflət içində üz çevirirlər*" deyə cavab verir. Sonra ondan Qiyamətin yaxınlaşma nişanələrindən birini deməsini istəyir və qarşılığında Adəmin (ə) varlığının bu şərtlərdən biri olması cavabını alır. İdrisə (ə) başqa suallar da verən İbn Ərəbi onunla söhbətini bitirir və vidalaşır. Daha sonra beşinci qata qalxan İbn Ərəbi orada Harun peyğəmbərlə (ə) qarşılaşır və onlar salamlaşaraq qısa söhbət edib ayrılırlar. Altıncı qata çıxdıqdan sonra Musa peyğəmbərlə (ə) salamlaşır. Həzrət Musa (ə) ona "ruyətullah" təcrübəsindən bəhs edir. [İbn Arabi, Muhyiddin, 2010, c.13, s.120-123] Yeddinci qata çatdıqdan sonra İbrahim peyğəmbəri (ə) görür. İbrahim peyğəmbərlə (ə) də söhbət edir, İbrahim (ə) ona haqqı təbliğ etməsindən və Nəmrutla olan hadisələrdən bəhs edər. Bu səyahət "Beytül-məmura" kimi davam edir. İbn Ərəbi bütünlüklə nura boyandığını və Allahın ona "Biz Allaha, bizə nazil olana (Qurana), İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun oğullarına nazil edilənə, Rəbbi tərəfindən Musa, İsa və digər peyğəmbərlərə verilənlərə iman gətirdik" (Ali-İmran surəsi 84) kəlamını ilham etdiyini vurğulayır. Ona görə də o, "Məhəmmədi məqama" çatma müjdəsini aldığını düşünmüşdür. Lakin bununla bərabər İbn Ərəbi özünü böyük biri sanmır, bir qul (bəndə) olduğunu və onda Rəbblikdən bir əsər olmadığını hesab edir. [İbn Arabi, 2010, c.13., s.125-127]

Bundan əlavə, əsərində verdiyi məlumata əsasən, İbn Ərəbi səmada Allaha "iki yay arası qədər və ya bundan daha yaxın"ına kimi yüksəlmiş bir möcüzəvi səyahət yaşamışdır. İbn Ərəbi merac hadisəsini İslam Peyğəmbərindən (s) başqa, onun varislərinin də təcrübə edə biləcəklərini qeyd edir. Əlbəttə, əvvəl də qeyd etdik ki, meracda İslam Peyğəmbəri (s) həm cismani, həm də ruhi olaraq yaşadığı halda onun varisləri meracı yalnız və yalnız ruhi olaraq yaşaya bilərlər. Bu səyahət həm də bir gecə səyahətidir. [Addas, Claude, 2015., s.70]

Biz burada merac hadiəsinin də hicrət hadisəsi və seyri-süluk məfhumu ilə yaxından əlaqəsini gördük. Deyə bilərik ki, merac mənəvi bir hicrətdir. Təsəvvüfdə vəlilərin də meracı vardır ki, yuxu və fəna halında baş verə bilir. Təbii ki, buradakı merac Peyğəmbərin (s) yaşadığı meracdan fərqlənir. İbn Ərəbinin də əsərinə nəzər saldıqda onun əsasən ruhani bir yüksəliş yaşadığını

görə bilərik. Onun meracının mənəvi bir merac olduğunu və İslam Peyğəmbərinin (s) yaşadığı kimi maddi bir xüsusiyyət daşımadığını da anlamış oluruq.

## 4.Hicrətin mahiyyəti

Yuxarıdakı hissədə sufilərin hicrət məfhumuna fərqli yanaşdıqlarını və hicrətin bir yerdən başqa bir yerə köç etməklə yanaşı, həm də bir mənəvi haldan başqa bir hala keçmək mənasının olduğunu da qeyd etdik. Hicrətin zahiri mənası ilə tanış olduq, indi isə təsəvvüfdəki batini mənası ilə bağlı fikirlərə baxaq.

Hicrət nəfsdən ruha köç etmək, pis olan xüsusiyyətləri tərk edib Peyğəmbərin (s) əxlaqına bürünməkdir. Peyğəmbər (s) vücudunda ruhunun həqiqətini ortaya çıxarmaq üçün Yəsribə köçmüş və oranı mədəni bir şəhər etmişdir. Əlavə olaraq, vücudun fəthi ilə də onu kamilləşdirmişdir. Bu bir seyr etmədir. Bu da haqqal-yəqin ilə nəticələnir. Haqqal-yəqinə yetişmək üçün də elməl-yəqin (Allaha doğru hərəkət) və eynəl-yəqin (merac) mərtəbələrini keçmək vacibdir. Meracdan dönüş isə haqqal-yəqindir ki, Məkkə şəhərinin fəth edilməsi ilə yekunlaşmışdır [Sarqut, 2019., s.279-280].

Salikin gedəcəyi yol təhlükəli və çox çətin olsa da cəmi iki mərhələdən ibarətdir: Birinci mərhələ zahiri varlıqdan keçməkdir, ikinci mərhələ isə həqiqi varlığa çatmaqdır.

Aşiqin məşuquna qovuşması da az əvvəl qeyd etdiyimiz üç mərhələdən ibarətdir ki, bunlar elməl-yəqin, eynəl-yəqin və haqqal-yəqindir. Bu mərhələləri başa düşmək üçün belə bir misal vermək olar: gözü bağlı adam alovu istilik elmi ilə qavraya bilər, gözünü açdıqda isə onu görərək qavrayar. Lakin içinə düşdükdə isə yanmağa başlayanda həqiqi mənada idrak edər [Allahverdiyev, İbrahim., 2022, nəşr edilməmiş., s.81].

Sufilikdə əsasən, mənəvi olan dörd hicrətdən (səfər) də bəhs edilir: “seyr iləllah” (qəlbin Allaha doğru yönəlməsi), seyr fillah (Haqqda səfər etmə), Allahla birlikdə seyr və “seyr billah ənillah” (Haqqdan səfər etmə). Bu səfərlər təkcə mənəvi bir təcrübədən ibarət deyil, həm də əqli fəaliyyət xüsusiyyəti də daşıyır [Uludağ, Süleyman., 2009, c.36., s.298-299].

Lakin bu dörd seyr ilə də məhdudlaşmır. Sayını artıra da bilərik. Təsəvvüfdə seyr, səfər, isra və merac terminləri “suluk” (mənəvi səyahət) termini ilə sinonim kimi işlədilir. Buna görə də Allaha doğru olan (seyr iləllah), Allah üçün olan seyr (seyr lillah), Allah üzərinə olan seyr (seyr əlallah), Allahla birgə olan seyr (seyr məallah), Allahda seyr (seyr fillah), Allah ilə olan seyr (seyr billah) və Allahdan olan seyr (seyr anillah) kimi müxtəlif növləri vardır [Uludağ, Süleyman, 2010, c.38., s.128].

Sufi şeyxlər digər ibadət və müəmalatlardakı kimi hicrət məsələsində də niyyət faktorunun əhəmiyyətini vurğulamışlar. Hicrət edən şəxs gərək

niyyətini düzgün seçsin, dünya və bənzəri məqsədlər üçün deyil, sırf Allahın razılığını qazanmaq və ona bəndəçilik etmək niyyəti ilə bu yola baş vursun. Əks halda onun əməli Allah qatında yüksək məqamlara layiq görülməz. Buna görə də təsəvvüf elminə böyük ölçüdə təsir edən və onu istiqamətləndirən sufilərdən biri olan İbn Ərəbi də öz əsərində niyyət məsələsinə işarə edir. O, Futuhatul-Məkkiyyə əsərində Həzrət Peyğəmbərdən (s) bu hədisi nəql edir: "Əməllər niyyətlərə görədir. Şəxs üçün niyyət etdiyi şey vardır. Hicrəti Allah və Rəsulu üçün olan şəxsin hicrəti Allah və Rəsulunadır. Dünya üçün hicrət edən şəxs isə onu qazanar. Yaxud bir qadın üçün hicrət edən şəxs onunla evlənər və hicrəti də hicrət etdiyi şeyədir". Əlavə olaraq, niyyətin əməldəki rolunu yağışın torpaqda yetişən bitkilərdəki rolu kimi qiymətləndirir. Həmçinin nəticənin də tam olaraq niyyətdən asılı olmadığını vurğulayır. Yəni bir işin yaxşı və ya pis olması niyyətin məhsulu deyil. Belə aydın olur ki, niyyət bir şeyin səbəbi ola bilər, lakin nəticəsi ola bilməz [İbn Ərəbi, Muhyiddin, Beyrut: Darul-Kutubil-İlmiyyə, c.1., s.317].

Burada mövzunu bir az da açmaq yerinə düşərdi. Çünki niyyətin nə qədər vacib bir ünsür olduğuna diqqət etməkdə fayda vardır. Niyyətin düzgün olması ibadətlərin qəbul olmasına birbaşa təsir edir. Məsələn; qıldığı namaz özünə geri qaytarılar, oxuduğu Quran qəbul olmaz, oruc tutar orucu qəbul olmaz, həcc edər həcci qəbul olmaz, sədəqə verər, amma sədəqəsi qəbul olmaz və s. Bütün bunların səbəbi də odur ki, ibadət edən şəxsin niyyəti saf deyil, misal olaraq, göstəriş üçün və ya başqa bir şey üçündür. Niyyət sırf Allaha görə olmamışdır [Coşan, Esad, 1994, s.234-235].

Hicrət məfhumu ilə yaxından əlaqəli olan bir digər söz də zöhddür. Yuxarıda da qeyd etdiyimiz kimi təsəvvüf əhli qəlbən və zehnən dünyanı tərk etməyi, ona biganə olmağı, nəfsi tərbiyə etmək üçün ruhunu və qəlbini dünyadan uzaqlaşdırmağı tövsiyə etmişlər və özləri də bu məsələdə diqqətli davranmışlar. Bu baxımdan zahidlərin yaşadığı həyata da toxunmaqda fayda görürük. Əvvəlcə zöhdün tərifinə sonrada mahiyyətinə diqqəti cəlb etmək istəyirik. Zöhd məfhumuna bir çox təriflər verilmişdir ki, biz onları qeyd edəcək və aydınlıq gətirəcəyik.

Əvvəlcə zöhd sözünün lüğətdə nə mənaya gəldiyinə qısaca toxunaq, sonra isə təriflərə yer verək. Bu söz "bir şeyə rəğbət bəsləməmək, ona qarşı etinasız davranmaq və ondan üz çevirmək kimi mənalarda işlənir. Buna görə də az yemək (təqlili-təam) yeyən şəxsləri "zahid", dünya həyatında pəhrizkar olmağı da "zəhadət" adlandırmışlar. Zöhddün əksi isə rəğbətdir [Ceyhan, Semih, 2013, c.44., s.530].

Süfyan əs-Sevri belə demişdir: "Dünyaya dəyər vermək kəpəkli çörək yeyib əba geymək deyil, uzun müddətli əməllər ardınca düşməkdir".

İbn Teymiyyə isə belə bir tərif vermişdir: “Zöhd axirətdə sənə fayda verməyəcək şeyləri, vərə (təqvalı olma) isə axirətdə zərərindən qorxduğun şeyləri tərk etməndir”.

Cüneyd əl-Bağdadi isə “Zöhdün mənası *“Bu, sizin əlinizdən çıxana kədərlənməməyiniz və Allahın sizə verdiyi nemətlərlə qürrələnməməyiniz üçündür. Allah özünü bəyənib lovğalanan heç bir kəsi sevməz”* (Hədid surəsi, 23) ayəsindəndir. Zahid isə qazandıqlarına sevinib qürrələnməyən və itirdiklərinə də üzülməyən şəxsdir” şəklində tərif vermişdir.

Yəhya ibn Muaz da mühüm bir nöqtəyə diqqət çəkir: “Zöhd əlindəki mal ilə əlaçıqlıq etmək duyğusunu, dünyanı sevmək isə sevincindən dolayı əlaçıqlıq etmək duyğusunu meydana gətirir”.

İbn Cəla isə belə bir izah vermişdir: “Zöhd dünyaya yox olacaq gözü ilə baxmaqdır. Əgər dünyaya bu gözlə baxsan, dünya sənin gözündə kiçilər və ondan üz çevirmək asanlaşar”.

İbn Xəfif isə “Zöhd, bəndənin sahib olduğu dünya malı əlindən çıxdığı zaman rahatlıq hiss etməsidir” şəklində tərif vermişdir.

Əhməd İbn Hənbəl isə zöhd məfhumuna “Zöhd uzun əməllər ardınca düşməməkdir” deyə yanaşmışdır.

Bir dəfə Əhməd ibn Hənbələ “Min dinarı olan şəxs zahid ola bilərmi?” sualını verirlər. O da “Bəli, ola bilər, amma əlindəki pul çoxaldıqda qürrələnməmək, azaldığında da üzülməmək şərti ilə” deyə cavab verir.

Abdullah ibn Mübarək, Şəqiq Bəlxi və Yusif ibn Əsbat “Zöhd yoxsulluğa razı olub Allaha güvənməkdir” formasında izah vermişdir.

Əbu Bəkr əş-Şibli və Əbu Süleyman əd-Darani də zöhdə bu cür tərif verir: “Zöhd bəndəni Allahdan uzaqlaşdıracaq hər şeyi tərk etməkdir”.

Başqa bir tərifində Cüneyd əl-Bağdadi belə demişdir: “Zöhd əli mal-mülkdən, qəlbi dünya ardınca qaçmaqdan saxlamaqdır”.

Zöhdün mahiyyətini dərk etmək üçün də bəzi xüsusiyyətlərə yiyələnmək əhəmiyyətlidir. Bunlar göstəriş (riya) üçün olmayan əməl, gərəksiz deyilən söz və liderlik hissi olmadan qazanılan şərəfdir.

Zunun əl-Misrinin də maraqlı yanaşması vardır: “Həqiqi zöhd nəfsi kiçik görüb ondan uzaqlaşmaqdır”.

Bir şəxs Yəhya ibn Muaza “Nə vaxt təvəkkül dükanına girəcəm və zahidlərin ridasını geyib onlarla söhbət edəcəyəm?” sualını verdikdə o da “Riyazətin, əgər Allah üç gün ruzini kəsərsə, bu nəfsinə ağır gəlməyəcək dərəcəyə çatdığın zaman. Bu dərəcəyə çatmadan zahidlərin məclisində olmağın cahillikdir. Nəticədə xalqın qarşısında rəzil olarsan” deyə cavab verir.

Əhməd ibn Hənbəl zöhdün növlərini izah edərkən belə bir yanaşma sərgiləmişdir: “Zöhün üç tərəfi vardır: Haramları tərk etmək - bu avamın

(xalq) zöhdüdür, ehtiyacından artıq olan halalı tərk etmək – bu havasın (xalqdan seçilənlərin) zöhdüdür, Allahdan uzaqlaşdıran hər şeyi tərk etmək – bu da ariflərin zöhdüdür" [el-Cevziyye, İbn Kayyim, 1990, c.2., s.12-13].

Zöhd ilə bağlı Qurani-Kərimdə bir çox ayə vardır ki, biz birini qeyd etməklə kifayətlənəcəyik. Allah buyurur: "Lakin siz dünya həyatını üstün tutursunuz! Halbuki axirət daha xeyirli və daha baqidir (qalıcıdır)". (Əla surəsi 16-17) Ayədən də görünür ki, axirət həyatı daha dəyərlidir, mömin gərək bu dünyaya aludə olmasın və onun əsirinə çevrilməsin.

Zöhd hər şeydən qabaq bir tərk etmədir. Əvvəlcə dinin haram buyurduğu şeyləri tərk etmək, sonra şübəli olan şeylərdən özünü qorumaq (vərə) və sonra da mübah olan şeyləri tərk etməkdir, yəni mümkün olduğu dərəcədə aza qane olmaq. Az yatmaq, az yemək və az danışmaq da bunlardan biridir. Şəxs getdikcə pis xüsusiyyətlərdən tamamilə təmizlənib gözəl xüsusiyyətlərə boyanacaq. Bu da öz növbəsində Allahdan başqa hər bir şeyi qəlbdən kənarlaşdırmaqla nəticələnənir ki, zahid ilahi eşqin şirinliyini dadmış olur [Ceyhan, Semih., 2013, c.44., s.531].

Təriflərə yer verdikdən sonra gəlin zöhdlə bağlı vacib məqama, yəni onun mahiyyətinə diqqət edək. Zöhd kasıb yaşamaq, var-dövləti tərk etmək deyildir. Çünki böyük və imkanlı şəxsiyyətlər olan Davud peyğəmbər (ə) və Süleyman peyğəmbər (ə) də zahid idilər. Onlar böyük maddi sərvətlərə malik olmaqla bərabər, həm də dövrünün hökmdarı idilər. Elə İslam Peyğəmbəri (s) bəşəriyyətin ən zahid şəxslərindən biridir ki, ticarətlə məşğul olan və xanımı Xədicənin karvanlarını idarə etmiş şəxs idi. Peyğəmbərlik vəzifəsini icra etdikdən sonra da bu xüsusiyyətini qoruyub saxlamışdır. Mədinə şəhərinə hicrət etdikdən və orada dövlət qurduqdan sonra da əlinin altında çoxlu imkanlara baxmayaraq, sərvət toplamağa meyl etməmiş, ehtiyaclı insanlara yardımlar etmiş və sadə yaşayışa qane olmuşdur.

Bu mövzuya toxunan Həsən əl-Bəsri belə söyləmişdir: "Zöhd halalı haram hesab etmək və malı yox etmək deyildir. Lakin Allahın əlindəkinə öz əlindəki maldan daha çox güvənmən və bəlaya düçar olub savab ummağı, bəlaya düçar olmayıb savabdan məhrum qalmağa dəyişməndir" [el-Cevziyye, İbn Kayyim, 1990, c.2, s.14]. Buradan da görürük ki, zahid olmaq əlindəki sərvətə bağlı qalmamaq və dünyaya etinasız yanaşmaqdır. Başına bir fəlakət və ya faciə gəldikdə buna görə üsyan etməmək, Allahın qəzavü-qədərinə boyun əymək və səbr etməyin qarşılığında mükafat alacağına ümid etməkdir. Bir növ nəfsinlə cihad etməkdir. Necə ki, Həzrət Peyğəmbərimiz (s) döyüşdən gələn müsəlman ordusuna "Kiçik cihaddan böyük cihada gəldiniz." deyə buyurur. Səhabələr də böyük cihadın nə olduğunu soruşduqlarında İslam Peyğəmbəri (s) onlara "Böyük cihad şəxsin nəfsi və onun istəkləri ilə etdiyi cihadıdır" deyə cavab verir [əl-Hindi, əl-Müttəqi, c.4, s.430]. Yəni

insanın düşmənlə döyüşərək cihad etməyindən daha da çətin olan öz nəfsi ilə cihad etməyidir. Bunun üçün də nəfsin cihadı zöhd və riyazət ilə olur. İnsan nəfsini Allah yolunda məğlub edir. Zahid olmaq ilə olmamağın fərqini belə bir misal nümunəsində sadələşdirmək olar: bir insan düşünək ki, əlində bir milyon manat pul var və başqa bir insan da düşünək ki, əlində min manat pul vardır. Birinci şəxs əlindəki sərvəti itirərsə, həyatında heç bir şey dəyişməyəcək, intihar etməyə cəhd göstərməyəcək. Lakin ikinci şəxs isə əlindəki sərvəti itirərsə, intihar edəcək. Bu zaman biz birinci şəxsin zahid olduğunu, ikinci şəxsin isə zahid olmadığını müşahidə etmiş oluruq. Çünki onlardan biri dünya malına bağlıdır, digəri isə etinasızdır. Bununla da biz zöhdün nə demək olduğunu və bu mənada hicrətin, yəni dünyanı tərk etməyin və ona aludə olmamağın çox mühüm bir məsələ olduğunu anlamış oluruq. Çünki hicrət, elə qəlbinlə və zehninlə səni Allahdan uzaqlaşdıran hər şeydən köç etməkdir, onlardan uzaqlaşmaqdır.

**5.Nəticə**

Hicrət tərk etmək, ayrılmaq, uzaqlaşmaq kimi mənaları verdiyinə görə həm Həzrət Peyğəmbərin (s) Məkkədən Mədinəyə köç etməsini, həm də küfr və onun əlamətlərini tərk etməyi, xoşagəlməz əxlaqdan yaxşı əxlaqa dönməyi ifadə edir. Sufi alimlər Merac hadisəsini də hicrət işığıda dəyərləndirmişlər və əsərlərində bu mövzuya toxunmuşlar. Sufilər vəlilərin də merac ruhən etməsini qəbul etmişlər, lakin bu meracın Peyğəmbərimizin (s) meracından fərqli olduğunu və şəri cəhətdən hökm gətirmə xüsusiyyətində olmadığını da vurğulamışlar. Təsəvvüfdə merac zamanla seyri-süluk mənasına gəlmiş, həm də hicrətlə yaxın mənada istifadə edilmişdir. Meracı ruhun yüksəlişi və mənəvi hicrət kimi qəbul edə bilərik. Mənəvi mənada meracı bir çox sufilər də (məsələn; İbn Ərəbi) yaşamışdır və bu cür merac maddi olmaqdan daha çox ruhani xüsusiyyətə malikdir.

Bundan başqa zöhd məfhumu da vardır ki, hicrətlə yaxın əlaqəlidir. Zöhd də insanı Allahdan uzaqlaşdıran hər şeyin tərk edilməsidir. Nəfsin pis xüsusiyyətlərindən uzaqlaşmaqdır, onunla cihad etməkdir. Qazandıqlarına çox sevinib qürrələnməmək və itirdiklərinə görə də üzülməməkdir. Zöhd həm də bir hicrətdir, əvvəlcə haramlardan, sonra şübhəli olan şeylərdən və sonra da mübah olan şeylərdən hicrət etməkdir. Beləcə zahid qəlbində Allahdan başqa hər bir şeyi tərk edir və imanın şirinliyini dadmış olur.

## ƏDƏBİYYAT

**1.** Addas, C. (2015). *İbn Arabi: Dönüşü Olmayan Yolculuk* (A. Ataman, Trans.). İstanbul: Nefes Yayıncılık.

**2.** Allahverdiyev, İ. (2022). *Təsəvvüf elminə giriş və Azərbaycanda təsəvvüf.* [Unpublished manuscript]. Bakı.

**3.** Aydın, M. (2015). Özel bir göç biçimi olarak hicret. *Sosioloji Divanı, 6*, Temmuz-Aralık.
**4.** Cebecioğlu, E. (n.d.). *Tasavvuf terimleri ve deyimleri sözcüğü.*
**5.** Ceyhan, S. (2013). Zühd. *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi* (Vol. 44). İstanbul: Türkiye Diyanet Vakfı.
**6.** Coşan, E. (1994). *İslam Sevgi ve Tasavvuf.* İstanbul: Seha Neşriyat.
**7.** Demircan, A. (2017). *Nebevi direniş Hicret.* İstanbul: Beyan Yayınları.
**8.** Döner, N. (2014). *Sufilere göre Hz. Peygamber*. İstanbul: İnsan Yayınları.
**9.** el-Cevziyye, İ. K. (1990). *Medaricu's Salikin Kur'ani tasavvufun Esasları* (A. Ataç et al., Trans., Vol. 2). İstanbul: İnsan yayınları.
**10.** Gölçük, Ş. (n.d.). Kuranda Hicret. *Hicret toplantısı.*
**11.** İbn Arabi, M. (2010). *Futuhat-ı Mekiyye* (E. Demirli, Trans., Vol. 13). İstanbul: Litera Yayıncılık.
**12.** İbn Ərəbi, M. (n.d.). *Futuhatul-Məkkiyyə* (Ə. Şəmsuddin, Ed., Vol. 1). Beyrut: Darul-Kutubil-İlmiyyə.
**13.** Kara, Y. B. (n.d.). Miraçın Tasavvufi Boyutu. *IV. Türkiye Lisanüstü Çalışmaları Kongresi – Bildiriler Kitabı IV.*
**14.** əl-Hindi, əl-Müttəqi. (1985). *Kənzul-Ümmal* (5th ed., Vol. 4). Beyrut.
**15.** Koyuncu, Z. (n.d.). Manzume-i Nasaih ala meşrebi't-tasavvuf'tan Miracname türüne yeni bir örnek. *Journal of Turkish Language and Literature.*
**16.** Qəzali, M. (2015). *Peyğəmbərin həyatı* (E. Məmmədov, Trans., Vol. 1). Bakı: İdrak İctimai Birliyi.
**17.** Önkal, A. (1998). Hicret. *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi* (Vol. 17). İstanbul: Türkiye Diyanet Vakfı.
**18.** Sargut, C. (2015, March 2). *Hicret.* Retrieved from https://arsiv.nefesyayinevi.com/hicret/
**19.** Sarqut, C. (2019). *Canın Canıdır Hz. Əhməd Muhəmməd Mustafa* (İ. M. Kurşun, Trans.). Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi.
**20.** Uludağ, S. (2009). Sefer. *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi* (Vol. 36). İstanbul: Türkiye Diyanet Vakfı.
**21.** Uludağ, S. (2010). Süluk. *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi* (Vol. 38). İstanbul: Türkiye Diyanet Vakfı.
**22.** Yavuz, S. S. (2020). Mi'rac. *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi* (Vol. 30). Ankara: Türkiye Diyanet Vakfı.

## REFERENCES

**1.** Addas, C. (2015). *Ibn Arabi: Journey of No Return* (A. Ataman, Trans.). Istanbul: Nefes Publishing. (in Turkish)

**2.** Allahverdiyev, I. (2022). *Introduction to the science of Sufism and Sufism in Azerbaijan.* [Unpublished manuscript]. Baku. (in Azerbaijani)
**3.** Aydin, M. (2015). Hijra as a special form of migration. *Sociology Divan, 6,* July-December. (in Turkish)
**4.** Cebecioghlu, E. (n.d.). *The word Sufi terms and idioms.* (in Turkish)
**5.** Ceyhan, S. (2013). Asceticism. *Turkey Religious Foundation Islamic Encyclopedia* (Vol. 44). Istanbul: Turkey Religious Foundation. (in Turkish)
**6.** Coshan, E. (1994). *Islam, Love and Sufism.* Istanbul: Seha Publications. (in Turkish)
**7.** Demircan, A. (2017). *Prophetic resistance: Hijra.* Istanbul: Beyan Publications. (in Turkish)
**8.** Doner, N. (2014). *The Prophet Muhammad According to Sufis.* Istanbul: İnsan Publications. (in Turkish)
**9.** al-Jawziyya, I. K. (1990). *Fundamentals of Qur'anic Sufism in Medaricu's Salik* (A. Ataç et al., Trans., Vol. 2). Istanbul: Insan Publications. (in Turkish)
**10.** Gölcük, Ş. (n.d.). Migration in the Qur'an. *Migration meeting.* (in Turkish)
**11.** Ibn Arabi, M. (2010). *Futuhat-ı Mekiyye* (E. Demirli, Trans., Vol. 13). Istanbul: Litera Publishing. (in Turkish)
**12.** Ibn Arabi, M. (n.d.). *Futuhatul-Makkiyya* (A. Shamsuddin, Ed., Vol. 1). Beirut: Darul-Qutubil-Ilmiya. (in Arabic)
**13.** Kara, Y. B. (n.d.). The Sufi Dimension of Miraj. *IV. Turkish Postgraduate Studies Congress – Proceedings Book IV.* (in Turkish)
**14.** al-Hindi, al-Muttaqi. (1985). Kanzul-Ummal (5th ed., Vol. 4). Beirut. (in Arabic)
***15.*** Koyuncu, Z. (n.d.). A new example of the Miracname genre from Manzume-i Nasaih ala meşrebi’t-tasavvuf. *Journal of Turkish Language and Literature.* (in Turkish)
**16.** Ghazali, M. (2015). *The life of the prophet* (E. Mammadov, Trans., Vol. 1). Baku: Idrak Public Union. (in Azerbaijani)
**17.** Onkal, A. (1998). Hijra. *Turkey Religious Foundation Islamic Encyclopedia* (Vol. 17). Istanbul: Turkey Religious Foundation. (in Turkish)
**18.** Sargut, C. (2015, March 2). *Hijra.* Retrieved from https://arsiv.nefesyayinevi.com/hicret/ (in Turkish)
**19.** Sargut, C. (2019). *Hazrat Ahmed Muhammed Mustafa is the soul of the soul* (I. M. Kurshan, Trans.). Baku: Nurlar Publishing-Polygraphy Center. (in Azerbaijani)

**20.** Uludagh, S. (2009). Expedition. *Turkey Religious Foundation Islamic Encyclopedia* (Vol. 36). Istanbul: Turkey Religious Foundation. (in Turkish)

**21.** Uludağ, S. (2010). Leech. *Turkey Religious Foundation Islamic Encyclopedia* (Vol. 38). Istanbul: Turkey Religious Foundation. (in Turkish)

**22.** Yavuz, S. S. (2020). The Mi'rac. *Turkey Religious Foundation Islamic Encyclopedia* (Vol. 30). Ankara: Turkey Religious Foundation. (in Turkish)